*PAULUN*

# KORİNFLİLƏRƏ BİRİNCİ MƏKTUBU

## GİRİŞ

Paulun *«Korinflilərə Birinci Məktubu»*nun yazılmasının məqsədi onun Korinfdə əsasını qoyduğu cəmiyyətdə məsihçi həyatı və imanı ilə bağlı problemlərin həll edilməsi idi. Bu dövrdə Korinf Yunanıstanın böyük ümumdünyəvi şəhəri və Romanın Axayya adlanan vilayətinin paytaxtı idi. Korinf İonik və Egey dənizləri arasındakı ensiz bərzəxdə yerləşirdi. Şəhərin coğrafi mövqeyinə görə ticarət yaxşı inkişaf etmiş, burada müxtəlif dinlərin mövcud olmasına görə əxlaqsızlıq geniş yayılmışdı.

Həvari imanlı cəmiyyətindəki fikir ayrılığı, əxlaqsızlıq, cinsi münasibətlər, nikah, vicdan, nizam-intizam, Müqəddəs Ruhun ənamları və dirilmə məsələlərinə dair nöqteyi-nəzərlərə görə narahat idi. O, məktubunda Müjdənin bütün bu məsələlərə tamamilə cavab verdiyini açıqlayır. Məktubun 13-cü fəsli məhəbbəti Allahın Öz xalqına verdiyi ən gözəl ənamı kimi təqdim edir və bu, ən məşhur fəsildir.

**Kitabın məzmunu:**

1:1-9 Salamlar və minnətdarlıq
1:10-4:21 Korinf cəmiyyətindəki fikir ayrılığı
5:1-7:40 Əxlaqi məsələlər
8:1-11:1 Məsihçilər və bütpərəstlər
11:2-14:40 Məsihçi həyatı və ibadət
15:1-58 Məsihin və imanlıların dirilməsi
16:1-4 İanələr haqqında
16:5-24 Son xahişlər və salamlar

# 1

1 [*]Allahın iradəsi ilə Məsih İsanın həvarisi olmağa çağırılmış mən Pauldan
və qardaşımız Sostendən 2 Allahın Korinfdə olan imanlılar cəmiyyətinə
salam! Siz Məsih İsada təqdis olunmusunuz. Rəbbimiz İsa Məsihin adını hər
yerdə çağıran hamı ilə birlikdə müqəddəs olmağa çağırılmısınız. O həm
onların, həm də bizim Rəbbimizdir. 3 Atamız Allahdan və Rəbb İsa
Məsihdən sizə lütf və sülh olsun!

---

[*] **1:1-3** Həv. 18:1

### Cəmiyyətin sədaqəti

[4] Allahın Məsih İsada sizə bəxş etdiyi lütfə görə sizin üçün həmişə
Allahıma şükür edirəm. [5] Çünki siz Məsihdə hər cəhətdən – hər cür sözdə və
biliklə zənginləşmisiniz. [6] Buna görə Məsih haqqındakı şəhadətimiz sizdə
təsdiqləndi. [7] Bu səbəbdən siz Rəbbimiz İsa Məsihin zühurunu gözləyərək
ruhani ənamdan heç bir korluq çəkmirsiniz. [8] Rəbbimiz İsa Məsih Öz
günündə nöqsansız olmanız üçün sizi sonadək qüvvətləndirəcək. [9] Sizi Oğlu
Rəbbimiz İsa Məsihlə şərik olmağa çağıran Allah sadiqdir.

### Cəmiyyətdə fikir ayrılığı

[10] Ey qardaşlar, Rəbbimiz İsa Məsih naminə sizə yalvarıram: hamınız
həmfikir olun. Qoy aranızda dəstəbazlıq olmasın, eyni düşüncədə və eyni
ağılda birləşin. [11] Qardaşlarım, Xloinin evindəkilərdən aranızda münaqişələr
olduğunu öyrəndim. [12] [*]Demək istədiyim budur ki, hər biriniz «mən Paulun
ardıcılıyam», «mən Apollonun ardıcılıyam», «mən Kefanın[a] ardıcılıyam» və
yaxud «mən Məsihin ardıcılıyam» deyir. [13] Məgər Məsih bölünmüşdü?
Məgər sizə görə çarmıxa çəkilən Paul idi? Məgər siz Paulun adı ilə vəftiz
edildiniz? [14] [*]Mən Krisp və Qaydan başqa sizlərdən heç kimi vəftiz
etmədiyimə görə Allaha şükür edirəm. [15] Belə etdim ki, heç kim mənim
adımla vəftiz edildiyini deməsin. [16] [*]Yeri gəlmişkən, mən bir də Stefananın
evindəkiləri vəftiz etdim. Bundan başqa kimisə vəftiz etdiyimi xatırlamıram.

### Məsih Allahın qüdrəti və müdrikliyidir

[17] Axı Məsih məni vəftiz etməyə deyil, Müjdəni yaymağa göndərdi.
Məsihin çarmıxı boşa çıxmasın deyə Müjdəni müdrik sözlərlə yaymıram.
[18] Çünki çarmıx barəsindəki kəlam məhv yolunda olanlar üçün ağılsızlıq,
xilas yolunda olan bizlər üçünsə Allahın qüdrətidir. [19] [*]Necə ki yazılıb:

«Müdriklərin müdrikliyini məhv edəcəyəm,
Aqillərin ağlını yox edəcəyəm».

[20] [*]Hanı müdrik? Hanı alim? Hanı bu dövrün mahir mübahisəçisi? Məgər
Allah dünyanın müdrikliyinin ağılsızlıq olduğunu nümayiş etdirmədi?
[21] Allahın müdrikliyində dünya öz müdrikliyi ilə Allahı tanımadığı üçün
Allah iman edənləri ağılsız sayılan vəz vasitəsilə xilas etməyə razı oldu.

---

[*]**1:12** Həv. 18:24
[a]**1:12** *Kefa* – yəni Peter. Bax: Yəhya 1:42.
[*]**1:14** Həv. 18:8; 19:29; Rom. 16:23
[*]**1:16** 1Kor. 16:15-16
[*]**1:19** Yeş. 29:14
[*]**1:20** Əyy. 12:17; Yeş. 19:12; 33:18; 44:24-28

[22] Çünki Yəhudilər möcüzəli əlamətlər istəyir, Yunanlar müdriklik axtarır.
[23] Bizsə çarmıxa çəkilmiş Məsihi vəz edirik. Bu, Yəhudilər üçün büdrəmə
daşı, başqa millətlər üçün isə ağılsızlıq sayılır. [24] Amma çağırılan həm
Yəhudilər, həm də Yunanlar üçün Məsih Allahın qüdrəti və Allahın
müdrikliyidir. [25] Çünki Allahın «ağılsızlığı» insan müdrikliyindən daha
üstündür, Allahın «zəifliyi» insan gücündən daha güclüdür.
[26] Qardaşlar, aldığınız çağırış barəsində düşünün. Bir çoxunuz bəşəri
nöqteyi-nəzərdən müdrik, nüfuzlu və yaxud əsilzadə deyildiniz. [27] Allah isə
müdrikləri utandırmaq üçün dünyanın ağılsız saydıqları, güclüləri
utandırmaq üçün dünyanın zəif saydıqları, [28] dünyanın dəyərli sayılanlarını
heç etmək üçün dünyanın xor baxdıqları, əsilsiz və dəyərsiz sayılan kəsləri
də seçdi ki, [29] Allahın qarşısında heç bir insan öyünməsin. [30] Amma siz
Allahın sayəsində Məsih İsadasınız. O bizim üçün ilahi müdriklik, salehlik,
müqəddəslik və satınalınma oldu. [31] [*]Buna görə yazıldığı kimi «öyünən
Rəbdə öyünsün».

# 2

[1] Ey qardaşlar, mən Allah barəsində sirli həqiqəti[b] elan etmək üçün sizə
gələndə yüksək natiqlik və müdrikliklə gəlmədim. [2] Çünki mən aranızda
olanda İsa Məsihdən, yəni çarmıxa çəkilmiş Şəxsdən başqa heç bir şey
bilməməyi qərara aldım. [3] [*]Yanınıza zəiflik, qorxu və böyük lərzə içində
gəldim. [4] Mənim sözüm də, vəzim də müdrikliyin inandırıcı sözlərindən
deyil, Ruhun qüdrətini göstərməsindən asılı idi. [5] Belə ki imanınız insan
müdrikliyinə yox, Allahın qüdrətinə əsaslansın.

## Allahın müdrikliyi

[6] Yetkin insanlar arasında isə biz müdrikliyi öyrədirik. Amma bu müdriklik
nə indiki dövrün, nə də bu dövrün fani hökmdarlarının müdrikliyi deyil.
[7] Biz Allahdan gələn sirli müdrikliyi öyrədirik. Allah bu müdrikliyi bizim
izzətimiz üçün zaman başlamazdan əvvəl müəyyən etdi və gizli saxladı. [8] Bu
dövrün hökmdarlarından heç biri onu anlamadı. Çünki anlasaydılar, izzətli
Rəbbi çarmıxa çəkməzdilər. [9] [*]Amma necə ki yazılmışdı:

«Allahın Onu sevənlər üçün hazırladıqlarını
Nə göz görüb, nə qulaq eşidib,
Nə də insan ürəyi dərk edib».

---

[*]**1:31** Yer. 9:23-24
[b]**2:1** *Sirli həqiqəti* – bəzi əlyazmalarda *şəhadəti.*
[*]**2:3** Həv. 18:9
[*]**2:9** Yeş. 64:4

[10] Bizə isə Allah bunları Öz Ruhu ilə açdı. Çünki Ruh hər bir şeyi, Allahın
dərin düşüncələrini belə, araşdırır. [11] Axı insanın düşüncələrini insanın
daxilində olan ruhdan savayı kim bilər? Eləcə də Allahın düşüncələrini
Onun Ruhundan savayı heç kim bilməz. [12] Allahın bizə verdiyi ənamları
dərk edə bilməyimiz üçün biz bu dünyanın ruhunu yox, Allahdan olan Ruhu
qəbul etdik. [13] Bunları insani müdrikliyin öyrətdiyi deyil, Ruhun öyrətdiyi
sözlərlə bildiririk. Ruhani anlayışları ruhani sözlərlə ifadə edirik. [14] Təbiətcə
yaşayan adam Allahın Ruhuna aid olan şeyləri qəbul etmir, çünki bunları
ağılsızlıq sayır. Bunları başa düşə bilmir, çünki bunlar ruhani nöqteyi-
nəzərdən araşdırılır. [15] Ruhani adam isə hər şeyi araşdıra bilər. Fəqət onun
daxilini heç kim araşdıra bilməz. [16] [*] Axı «Rəbbin ağlını kim dərk etdi? Ona
kim məsləhətçi oldu?» Amma biz Məsihin ağlına malikik.

# 3

### Həvarilər yalnız Allahın xidmətçiləridir

[1] Ey qardaşlar, mən sizinlə ruhani insanlar kimi deyil, cismani təbiətə görə
yaşayan, Məsihdə körpə olan insanlar kimi danışa bildim. [2] [*] Mən sizi bərk
yeməklərlə deyil, südlə qidalandırdım. Çünki bərk yeməklərə hazır
deyildiniz, indi də hazır deyilsiniz. [3] Çünki siz hələ də cismanisiniz. Əgər
aranızda qısqanclıq və münaqişə[c] varsa, onda siz cismani deyilsinizmi? Adi
insanlar kimi həyat sürmürsünüzmü? [4] [*] Əgər biriniz «mən Paulun
ardıcılıyam», başqası isə «mən Apollonun ardıcılıyam» deyirsə, siz adi
insanlar[d] deyilsinizmi?
[5] Apollo kimdir, Paul kimdir? Rəbb hər birimizə təyin etdiyi kimi yalnız
iman etməyinizə vasitəçi olan xidmətçiyik. [6] [*] Mən əkdim, Apollo suladı,
amma Allah böyütdü. [7] Buna görə də mühüm olan əkən ya da sulayan deyil,
əkiləni böyüdən Allahdır. [8] Əkənlə sulayanın isə dəyəri eynidir. Hər biri öz
zəhmətinə görə mükafat alacaq. [9] Çünki biz Allahın əməkdaşlarıyıq. Sizsə
Allahın zəmisi, Allahın tikilisisiniz.
[10] Allahın mənə verdiyi lütfə görə bir mahir bənna kimi bünövrəni qoydum,
başqası isə onun üzərində inşa edir. Amma hər kəs necə inşa etdiyinə diqqət

---

[*] **2:16** Yeş. 40:13
[*] **3:2** İbr. 5:12-13
[c] **3:3** *Qısqanclıq və münaqişə* – bəzi əlyazmalarda *qısqanclıq, münaqişə və fikir ayrılığı.*
[*] **3:4** 1Kor. 1:12
[d] **3:4** *Adi insanlar* – bəzi əlyazmalarda *cismani.*
[*] **3:6** Həv. 18:4-11,24-28

yetirsin. [11] Çünki heç kim qoyulan bünövrədən, yəni İsa Məsihdən başqa bir
təməl qoya bilməz. [12] Bu bünövrənin üstündə qızıldan, gümüşdən, qiymətli
daşlardan, taxtadan, samandan, küləşdən kim nə isə inşa edərsə, [13] onun
əməli bəlli olacaq və qiyamət günü[e] onu ortaya çıxaracaq, çünki odla aşkar
olunacaq. Od da hər birinin əməlinin keyfiyyətini sınaqdan keçirəcək.
[14] Kimin inşa etdiyi əməl tab gətirsə, mükafat alacaq. [15] Kimin əməli yanıb
yox olsa, o zərər çəkəcək. Özü isə xilas olacaq, amma sanki od içindən
keçəcək. [16] [*]Məgər bilmirsiniz ki, siz Allahın məbədisiniz və Allahın Ruhu
sizdə yaşayır? [17] Kim Allahın məbədinə ziyan vursa, Allah da ona ziyan
vuracaq. Çünki Allahın məbədi müqəddəsdir və bu məbəd sizsiniz.
[18] Qoy heç kim özünü aldatmasın. Sizlərdən biri bu dövrdə özünü müdrik
sayırsa, müdrik olmaq üçün ağılsız olsun. [19] [*]Çünki bu dünyanın müdrikliyi
Allah qarşısında ağılsızlıqdır. Necə ki yazılıb: «O, müdrikləri hiylə qurarkən
yaxalayır». [20] [*]Yenə də yazılıb: «Rəbb müdriklərin düşüncələrini, bunların
boş olduğunu bilər». [21] Eləcə qoy heç kim insanlarla öyünməsin, çünki hər
şey sizindir. [22] İstər Paul, istər Apollo, istər Kefa olsun, dünya, həyat, ölüm,
indiki və gələcək zaman – hər şey sizindir. [23] Sizsə Məsihinsiniz, Məsih də
Allahındır.

# 4

## Həvarilərin xidməti

[1] Beləcə insanlar bizi Məsihin xidmətçiləri və Allahın sirli niyyətini yerinə
yetirən idarəçiləri saysın. [2] İdarəçilərdənsə tələb olunur ki, etibara layiq
olsunlar. [3] Siz yaxud insan məhkəməsi mənim işlərimi təhlil edirsə, bu
mənim üçün çox az əhəmiyyət kəsb edir; hətta mən öz işlərimi təhlil
etmirəm. [4] Heç bir şeyə görə vicdan əzabı çəkməsəm də, beləcə özümə haqq
qazandırmıram. Çünki mənim işlərimi təhlil edən Rəbdir. [5] Buna görə də
münasib vaxtdan əvvəl, yəni Rəbb gəlməyənədək heç bir işi mühakimə
etməyin. O gəlib qaranlıqda gizlənən şeylərə işıq salacaq və insan
ürəklərinin niyyətlərini aşkara çıxaracaq. Onda hər kəs Allahdan ona düşən
tərifi alacaq.
[6] Ey qardaşlar, bizdən nümunə alaraq «yazılanlardan kənara çıxmayın»
məsəlinin mənasını öyrənəsiniz deyə bunları özümə və Apolloya tətbiq
etdim ki, heç kim başqasının qarşısında lovğalanıb o birisinə xor baxmasın.

---

[e]**3:13** *Qiyamət günü* – hərfi tərcümədə *gün.*
[*]**3:16** 1Kor. 6:19; 2Kor. 6:16
[*]**3:19** Əyy. 5:13
[*]**3:20** Zəb. 94:11

[7] Axı səni kim başqalarından fərqləndirir? Nəyin var ki onu əldə etməmisən?
Əgər əldə etmisənsə, nə üçün əldə etməmiş kimi öyünürsən? [8] Siz daha
doymusunuz! Siz artıq varlanmısınız! Siz bizsiz padşah olmusunuz! Kaş ki
siz, doğrudan, padşah olaydınız ki, biz də sizinlə bərabər padşahlıq edəydik!
[9] Çünki mənə elə gəlir ki, Allah biz həvariləri ölümə məhkum olunanlar kimi
ən sonda nümayiş etdirdi. Biz də həm dünya, həm mələklər, həm də insanlar
üçün bir tamaşa olduq. [10] Biz Məsih naminə ağılsızıq, sizsə Məsihdə
ağıllısınız! Biz zəifik, siz güclüsünüz! Siz şərəfli adamsınız, bizsə hörmətsiz!
[11] Bu vaxtadək biz ac-susuz və cındır içindəyik. Biz döyülürük, qalmağa
yerimiz də yoxdur. [12] *Öz əllərimizlə işləyib zəhmət çəkirik. Bizə böhtan
atanda xeyir-dua veririk, təqib olunanda dözürük, [13] təhqir olunanda
mülayim cavab veririk. Biz bu anadək dünyanın zibili, hamının tullantısı
kimi olmuşuq.

[14] Bunları sizi utandırmaq üçün yox, sevimli övladlarım kimi sizə öyüd-
nəsihət vermək üçün yazıram. [15] Çünki sizin Məsih yolunda minlərlə
mürəbbiniz olsa belə, atalarınız azdır; mən Müjdə vasitəsilə Məsih İsada
olan atanız oldum. [16] *Buna görə sizə yalvarıram, məndən nümunə götürün.
[17] Bu səbəbə görə Rəbdə mənə sadiq və sevimli olan oğlum Timoteyi sizin
yanınıza göndərdim. O sizə hər yerdə, hər bir imanlılar cəmiyyətində
öyrətdiyim kimi Məsih İsada getdiyim yolları xatırladacaq. [18] Sizdən bəziləri
elə bilir ki, mən yanınıza gəlməyəcəyəm və buna görə də lovğa-lovğa
danışır. [19] Amma Rəbb istəsə, mən bu yaxında yanınıza gələcəyəm. O vaxt
bu lovğaların sözlərini yox, gücünü yoxlayacağam. [20] Çünki Allahın
Padşahlığı sözdən deyil, gücdən ibarətdir. [21] Siz nə istəyirsiniz? Yanınıza
dəyənəklə, yoxsa məhəbbət və həlimlik ruhu ilə gəlim?

# 5

## İmanlılar arasındakı əxlaqsızlıq

[1] *Danışırlar ki, aranızda cinsi əxlaqsızlıq baş verir: sizdən bir nəfər ögey
anası ilə yaşayır. Belə cinsi əxlaqsızlığa hətta bütpərəstlər arasında da rast
gəlmək mümkün deyil! [2] Siz hələ lovğa-lovğa danışırsınız! Bunun əvəzinə
yas tutmalı idiniz. Belə əməlin sahibi aranızdan qovulmalıdır. [3] Mənsə
cismən uzaqda olub ruhən aranızdayam və bu adam barəsində sanki aranızda
olduğum üçün artıq hökm çıxarmışam: [4] siz Rəbbimiz İsanın adı ilə
toplaşanda, mən də ruhən və Rəbbimiz İsanın qüdrəti ilə aranızda olanda,

---

*4:12** Həv. 18:2-3
*4:16** 1Kor. 11:1; Flp. 3:17
*5:1** Lev. 18:8; 20:11; Qanun. 22:30; 27:20

5 həmin adamı Şeytana təslim edin ki, cismani təbiəti yox olsun, ruhu isə
Rəbbin günündə xilas olsun. 6 [*]Sizin öyünməyiniz yaxşı deyil. Məgər
bilmirsiniz ki, azacıq maya bütün xəmiri acıdır? 7 [*]Əslində mayasız
olduğunuz kimi köhnə mayadan təmizlənin ki, təzə xəmir olasınız. Çünki
bizim Pasxa quzumuz olan Məsih qurban[f] verildi. 8 [*]Buna görə köhnə maya
ilə, kin və pislik mayası ilə yox, amma səmimiyyətin və həqiqətin mayasız
çörəyi ilə bayram edək.
9 Mən əvvəlki məktubumda sizə əxlaqsızlıq edənlərlə ünsiyyətdə olmamağı
yazmışdım. 10 Amma mən demək istəmədim ki, bu dünyanın əxlaqsızları,
tamahkarları, soyğunçu və yaxud bütpərəstləri ilə ünsiyyətdə olmayın. Belə
olsaydı, siz bu dünyanı tərk etməyə məcbur olardınız! 11 Əslində mən sizə
yazmışdım ki, siz özünü bacı-qardaş adlandırıb, lakin əxlaqsızlıq,
tamahkarlıq, bütpərəstlik, böhtançılıq, əyyaşlıq və yaxud soyğunçuluq
edənlə ünsiyyətdə olmayın. Belələri ilə bir yerdə çörək belə, yeməyin.
12 Çünki cəmiyyətdən kənardakıları mühakimə etməyə mənim nə ixtiyarım
var? Məgər sizin mühakimə etməli olduqlarınız cəmiyyətdəkilər deyilmi?
13 [*]Cəmiyyətdən kənardakıları Allah mühakimə edəcək. Siz isə öz aranızdan
pis adamı atın.

# 6

## Məhkəmələr barəsində

1 Sizlərdən birinin başqası ilə iddiası varsa, müqəddəslərin qarşısında yox,
haqsızların qarşısında mühakimə olunmağa cəsarəti çatarmı? 2 Dünyanı
müqəddəslərin mühakimə edəcəyini bilmirsinizmi? Madam ki dünyanı
mühakimə edəcəksiniz, belə xırda işləri mühakimə etməyə ixtiyarınız
çatmırmı? 3 Mələkləri bizim mühakimə edəcəyimizi bilmirsinizmi? Bəs
gündəlik həyata aid işlər harada qaldı? 4 Əgər elədirsə, gündəlik həyatda
məhkəməyə veriləcək işləriniz varsa, imanlılar cəmiyyətində saymadığınız
adamlarımı hakim seçirsiniz? 5 Mən bunu sizi utandırmaq üçün deyirəm.
Yəni öz bacı-qardaşlarınız arasında hakim olmaq üçün sizlərdən bir nəfər
müdrik adam tapılmadı? 6 Amma qardaş qardaşla məhkəməyə gedir, üstəlik
imansızlar qarşısında! 7 Əslində bir-birinizi məhkəməyə çəkməyiniz sizin
üçün artıq tam məğlubiyyətdir. Əvəzində haqsızlığa qatlaşmaq daha yaxşı

---

[*]**5:6** Qal. 5:9
[*]**5:7** Çıx. 12:5
[f]**5:7** *Qurban* – bəzi əlyazmalarda *bizdən ötrü qurban.*
[*]**5:8** Çıx. 13:7; Qanun. 16:3
[*]**5:13** Qanun. 13:5; 17:7

deyilmi? Aldanıb, dözmək daha yaxşı deyilmi? [8] Amma siz özünüz haqsızlıq edib başqalarını aldadırsınız. Üstəlik bunu bacı-qardaşlarınıza edirsiniz.
[9] Məgər bilmirsiniz ki, haqsızlıq edənlər Allahın Padşahlığını irs olaraq
almayacaq? Aldanmayın, çünki əxlaqsızlar, bütpərəstlər, zinakarlar, fahişə
kişilər, kişibaz kişilər, [10] oğrular, tamahkarlar, əyyaşlar, böhtançılar,
soyğunçular Allahın Padşahlığını irs olaraq almayacaq. [11] Sizlərdən bəzisi
belə idi. Amma Rəbb İsa Məsihin adı ilə və Allahımızın Ruhu ilə yuyulub
təmizləndiniz, təqdis olundunuz və saleh sayıldınız.

### Siz Məsihin üzvlərisiniz

[12] [*]«Mənim üçün hər şeyə icazə var» deyirsiniz, lakin hər şey xeyir vermir.
Mən də «hər şeyə icazə var» deyə bilərəm, amma özümü heç bir şeyə tabe
etməyəcəyəm. [13] «Yemək qarın üçün, qarın da yemək üçündür» deyirsiniz,
amma Allah həm qarını, həm də yeməyi yox edəcək. İnsan bədəni də
əxlaqsızlıq üçün deyil, Rəbb üçündür. Rəbb də bədən üçündür. [14] Rəbbi
diriltdən Allah Öz qüdrəti ilə bizi də diriltdəcək. [15] Bilmirsiniz ki, bədənləriniz
Məsihin üzvləridir? İndi Məsihin üzvlərini götürüb bir fahişənin üzvləri
edimmi? Əsla! [16] [*]Bilmirsiniz ki, fahişə ilə birləşən onunla bir bədən olur?
Çünki deyilmişdir: «İkisi bir bədən olacaq». [17] Rəblə birləşənsə Rəblə ruhən
bir olur. [18] Cinsi əxlaqsızlıqdan uzaqlaşın. İnsanın etdiyi bütün digər
günahlar bədəndən kənardadır, amma əxlaqsızlıq edən öz bədəninə qarşı
günah edir. [19] [*]Məgər bilmirsiniz ki, bədəniniz Allahdan aldığınız, sizdə
yaşayan Müqəddəs Ruhun məbədidir? Siz özünüzə məxsus deyilsiniz, [20] çox
baha qiymətə satın alınmısınız. Beləliklə, bədəninizlə[g] Allaha izzət gətirin.

# 7

### Nikah qaydaları

[1] İndi isə «kişi qadına toxunmasa yaxşıdır» yazdığınıza gəlincə,
[2] əxlaqsızlığın qabağını almaq üçün hər kişinin öz arvadı, hər qadının da öz
əri olsun. [3] Ər arvadına aid, arvad da ərinə aid olan nikah borcunu yerinə
yetirsin. [4] Arvadın bədəni özünün yox, ərinin ixtiyarındadır. Eləcə də kişinin
bədəni özünün yox, arvadının ixtiyarındadır. [5] Müvəqqəti olaraq razılıqla,

---

[*]**6:12** 1Kor. 10:23
[*]**6:16** Yar. 2:24
[*]**6:19** 1Kor. 3:16; 2Kor. 6:16
[g]**6:20** *Bədəninizlə* – bəzi əlyazmalarda *Allaha məxsus olan bədəniniz və ruhunuzla.*

dua[h] üçün vaxt ayırmaqdan savayı bir-birinizi ər-arvadlıq təminatından
məhrum etməyin. Bundan sonra yenə də bir yerdə olun ki, nəfsinizə hakim
olmadığınıza görə Şeytan sizi sınağa çəkməsin. 6 Bunları əmr kimi yox,
güzəşt kimi deyirəm. 7 Çünki bütün insanların mənim kimi olmasını
istərdim. Amma hər bir insanın Allahdan aldığı öz ənamı var – birininki
belədir, digərininki başqa cürdür.
8 Evli olmayanlara və dul qadınlara isə bunu deyirəm: mənim kimi qalsalar,
onlar üçün yaxşı olar. 9 Əgər özlərini saxlaya bilmirlərsə, qoy ailə qursunlar.
Çünki ehtirasdan yanmaqdansa ailə qurmaq daha yaxşıdır.
10 [*]Evli olanlara isə mən əmr edirəm, daha düzgün desəm, Rəbb əmr edir:
qadın ərindən ayrılmasın. 11 Ayrılırsa, ərsiz qalmalıdır yaxud əri ilə
barışmalıdır. Ər də arvadını boşamasın.
12 Başqalarına isə Rəbb yox, mən deyirəm ki, əgər bir qardaşın iman
etməyən arvadı var və arvad onunla yaşamağa razıdırsa, əri onu boşamasın.
13 Bir arvadın iman etməyən əri varsa və əri onunla yaşamağa razıdırsa, qoy
arvadı ondan boşanmasın. 14 Çünki iman etməmiş ər arvadı vasitəsilə təqdis
olunur və iman etməmiş arvad imanlı əri vasitəsilə təqdis olunur. Əks halda
uşaqlarınız natəmiz olardı, indi isə onlar müqəddəsdir. 15 İman etməyən
ayrılırsa, qoy ayrılsın. Qardaş ya da bacı belə hallarda məcburiyyət
qarşısında deyil. Allah sizi sülhdə yaşamağa çağırıb. 16 Ey qadın, ərini xilas
edib-etməyəcəyini haradan bilirsən? Yaxud sən, ey ər, arvadını xilas edib-
etməyəcəyini haradan bilirsən?

## Rəbbin çağırışına uyğunluq

17 Amma hər kəs Allahın ona təyin etdiyi kimi Rəbbin çağırışına uyğun
həyat sürsün. Bunu bütün cəmiyyətlərə əmr edirəm. 18 Əgər bir nəfər sünnətli
olaraq çağırış aldısa, sünnət olunmanı aradan qaldırmasın. Digəri isə
sünnətsiz olaraq çağırış aldısa, qoy sünnət olunmasın. 19 Sünnətlilik də,
sünnətsizlik də əhəmiyyət kəsb etmir, əhəmiyyət kəsb edən isə Allahın
əmrlərini yerinə yetirməkdir. 20 Qoy hər kəs çağırış aldığı vaxt nə vəziyyətdə
idisə, elə də qalsın. 21 Çağırış alanda qul idinsə, fikir eləmə. Amma əgər azad
olmağa imkanın varsa, bu fürsəti əldən vermə. 22 Çünki Rəbdə çağırış alan
vaxt qul artıq Rəbbin azad insanıdır. Eləcə də çağırış alan vaxt azad insan
Məsihin quludur. 23 Siz çox baha qiymətə satın alınmısınız, insanlara qul
olmayın! 24 Ey qardaşlar, hər kəs çağırış alanda nə vəziyyətdə idisə, eləcə
Allahla birlikdə qalsın.

## Subay olmağın faydası

---

[h]**7:5** *Dua* – bəzi əlyazmalarda *oruc və dua.*

[*]**7:10-11** Mat. 5:32; 19:9; Mark 10:11-12; Luka 16:18

[25] İndi isə qızlara gəlincə, bu barədə Rəbdən əmr almamışam. Amma
etibara layiq olmaq üçün Rəbbin mərhəmətinə nail olmuş bir insan kimi öz
fikirlərimi deyirəm. [26] Məncə, indi yaranmış çətin vəziyyətə görə insanın
olduğu kimi qalması yaxşıdır. [27] Arvadınla nikahla bağlısansa, ondan azad
olmağını arzu etmə. Arvadın yoxdursa, özünə arvad axtarma. [28] Amma
evlənməyin günah deyil. Qızın da ərə getməsi günah deyil. Amma belə
adamlar bu həyatda əziyyət çəkəcək. Mən sizi bundan qorumaq istəyirəm.
[29] Qardaşlar, bunu demək istəyirəm: vaxta az qalıb. Bundan sonra arvadı
olanlar olmayanlar kimi, [30] yas tutanlar tutmayanlar kimi, sevinənlər
sevinməyənlər kimi, mal alanlar malı olmayanlar kimi, [31] bu dünyanın
işlərindən faydalananlar bu işlərdən uzaq olanlar kimi olsun. Çünki bu
dünyanın indiki vəziyyəti keçib-gedir.
[32] Sizin qayğısız olmanızı istəyirəm. Subay kişi Rəbbi necə razı salmaq
barəsində düşünüb Rəbbin işlərinin qayğısına qalır. [33] Evli isə arvadını razı
salmaqdan ötrü dünyəvi işlərin qayğısına qalır [34] və diqqəti yayınır. Ərsiz
qadın yaxud qız da Rəbbin işlərinin qayğısına qalır ki, həm bədəndə, həm də
ruhən müqəddəs olsun. Ərli qadın isə ərini razı salmaqdan ötrü dünyəvi
işlərin qayğısına qalır. [35] Bunu azadlığınızı məhdudlaşdırmaq üçün yox,
yalnız sizin xeyrinizə deyirəm ki, ədəblə davranıb fikirlərinizi dağıtmadan
özünüzü Rəbbə həsr edəsiniz.
[36] Əgər bir nəfər nişanlandığı qızla düzgün davranmadığını düşünürsə, yaşı
çatıb və evlənmək lazım gəlirsə, qoy o adam istədiyini etsin. O, günah etmir.
Qoy onlar evlənsin. [37] Amma kim ürəyində qəti niyyət tutub, könüllü
surətdə, öz nəfsinə hakim olaraq nişanlandığı qızla evlənməmək qərarına
gəlirsə, o adam da yaxşı edir. [38] Buna görə də nişanlısı ilə evlənən yaxşı edir,
evlənməyənsə daha yaxşı edir.
[39] Arvad əri sağ ikən ona[i] bağlı qalır. Əgər əri vəfat etsə, arvad azaddır və
kimə istəsə, ərə gedə bilər. Lakin o kişi Rəbdə olmalıdır. [40] Amma fikrimcə,
dul qadın olduğu kimi qalsa, daha xoşbəxt olar. Zənnimcə, məndə də Allahın
Ruhu var.

# 8

### Bütlərə təqdim olunan qurban əti

[1] Bütlərə təqdim olunan qurbanlara gəlincə, bizə məlumdur ki, bu barədə
«hamımızın biliyi var». Bilik insanın lovğalanmağına səbəb olur, məhəbbət
isə onu ruhən inkişaf etdirir. [2] Kim fikirləşir ki, bir şey bilir, o hələ lazım
olduğu kimi heç nə bilmir. [3] Amma kim Allahı sevirsə, Allah onun haqqında

---

[i]**7:39** *Ona* – bəzi əlyazmalarda *qanuna görə ona.*

hər şeyi bilir.
[4] Beləliklə, bütlərə təqdim olunan qurban ətinin yeyilməsi barəsində bilirik
ki, «büt dünyada heç nədir» və «bir olan Allahdan başqası yoxdur». [5] Yerdə
və yaxud göydə «allahlar» adlandırılanlar varsa, hətta çoxlu «allahlar» və
«sahiblər» varsa, [6] bizim üçünsə bir Allah – Ata var. Hər şey Ondan gəlir,
biz də Onun üçün yaşayırıq. Həmçinin bizim bir Sahibimiz var, O da Rəbb
İsa Məsihdir. Hər şey Onun vasitəsilə yaranır, biz də Onun vasitəsilə
yaşayırıq.
[7] Amma bunu hamı bilmir. Hələ bütpərəst adətlərinə uymuş bəziləri
yedikləri ətin bütlərə təqdim olunan qurban əti olduğunu düşünür və onlar
zəif olduğundan vicdanları ləkələnir. [8] Yemək bizi Allahın hüzuruna
gətirmir. Biz yeməyəndə heç nə itirmirik, yeyəndə də heç nə əldə etmirik.
[9] Amma diqqətli olun ki, sizin seçim ixtiyarınız zəif olanların büdrəməsinə
səbəb olmasın. [10] Əgər vicdan məsuliyyəti zəif olan şəxs görsə ki, bilik
sahibi olan sən büt evində süfrəyə oturmusan, bütlərə təqdim olunan
qurbanın ətini yeməyə cürət etməzmi? [11] Bunun nəticəsində bu zəif adam –
uğrunda Məsihin öldüyü bu bacı ya qardaş sənin biliyinin ucbatından həlak
olacaq. [12] Beləliklə, zəif olan bacı-qardaşlarınıza qarşı günah edib
vicdanlarını yaralayanda siz Məsihə qarşı günah edirsiniz. [13] Odur ki, əgər
yemək qardaşımı büdrədirsə, mən heç vaxt ət yeməyəcəyəm ki, qardaşım
büdrəməsin.

# 9

## Həvarinin haqqı və borcu

[1] Mən azad deyiləmmi? Həvari deyiləmmi? Rəbbimiz İsanı
görməmişəmmi? Siz Rəbdə etdiyim əməlin səmərəsi deyilsinizmi? [2] Əgər
başqaları üçün həvari deyiləmsə, heç olmasa sizin üçün həvariyəm. Çünki
Rəbdə siz mənim həvariliyimin möhürüsünüz.
[3] Mən işlərimi təhlil edənlərə qarşı belə müdafiə olunuram: [4] məgər bizim
yeyib-içməyə ixtiyarımız yoxdur? [5] Məgər digər həvarilər, Rəbbin qardaşları
və Kefa kimi yanımızda imanlı arvadımızı gəzdirməyə ixtiyarımız yoxdur?
[6] İşləməyib dolanmaq üçün yalnız mənim və Barnabanın ixtiyarı yoxdurmu?
[7] Kim öz hesabı ilə əsgərlik çəkər? Kim üzüm bağı salıb barından yeməz?
Kim sürünü otarıb südündən içməz? [8] Məgər mən ancaq insanların
düşündüyü kimi danışıram? Qanun eyni şeylər demirmi? [9] [*]Çünki Musanın
Qanununda yazılıb: «Xırman çəkən öküzün ağzını bağlama». Allah
öküzlərinmi qayğısına qalır [10] yoxsa bu sözlər tamamilə bizə aid deyil?

---

[*]**9:9-10** Qanun. 25:4; 1Tim. 5:18

Əlbəttə, bu bizim üçün yazılmışdır, çünki cütçü ümidlə şumlamalı, xırmançı
da məhsula ortaq olmaq ümidi ilə taxılı döyməlidir. 11 *Əgər biz aranızda
ruhani toxumlar əkdiksə, sizdən maddi bir məhsul yığsaq, çoxdurmu?
12 Əgər başqalarının sizdən bunu istəməyə ixtiyarı varsa, bizim buna daha
çox ixtiyarımız yoxdurmu?

Bizsə bu ixtiyardan istifadə etməmişik. Bunun əvəzinə Məsihin Müjdəsinin
yayılmasına mane olmamaq üçün hər şeyə dözürük. 13 *Məgər bilmirsiniz ki,
məbəddə iş görənlər məbədə gətirilən təqdimlərdən qidalanır və qurbangahın
xidmətçiləri qurbangahdan öz paylarını götürür? 14 *Beləcə də Rəbb Müjdəni
elan edənlərə Müjdədən dolanmağı əmr etmişdir. 15 Amma mən bu
hüquqların heç birindən istifadə etməmişəm. Bunları yazmıram ki, mənə də
belə edəsiniz. Fəxr etməyim üçün bu əsası heç kim boşa çıxarmaz! Belə
olmaqdansa, ölməyim daha yaxşıdır. 16 Müjdəni yaymaqsa fəxr etməyim
üçün əsas deyil. Çünki bu mənim mühüm borcumdur, əgər Müjdəni
yaymıramsa, vay halıma! 17 Əgər bunu könüllü olaraq edirəmsə, mükafatım
var. Yox, əgər bunu könüllü etmirəmsə, mənə tapşırılan vəzifəmi yerinə
yetirirəm. 18 Bəs onda mükafatım nədir? Mükafatım budur ki, Müjdəni[j]
yayaraq müftə vəz edirəm və Müjdəni yaymaqdan gələn ixtiyarımdan tam
istifadə etmirəm.

19 Mən azadam və heç kəsə məxsus deyiləm, amma mümkün qədər çox
insan əldə etmək üçün özümü hamıya qul etdim. 20 Yəhudiləri əldə etmək
üçün Yəhudilərlə Yəhudi kimi davrandım. Mən Qanun altında olmasam da,
Qanun altında olanları əldə etmək üçün Qanun altında olanlarla Qanun
altında olan kimi davrandım. 21 Özüm Allahın qanunundan kənar deyil,
Məsihin qanununa tabeyəmsə də, Qanundan kənar olanları əldə etmək üçün
onlarla Qanundan kənar olan kimi davrandım. 22 Zəifləri əldə etmək üçün
onlarla zəif kimi davrandım. Hər hansı bir yolla bəzilərini xilas etmək
naminə hər kəs üçün hər şey oldum. 23 Bunun hamısını Müjdə uğrunda, onun
bərəkətinə şərik olum deyə edirəm.

24 Qaçışda yarışanların hamısının qaçdığını, amma təkcə bir nəfərin
mükafat aldığını bilmirsinizmi? Elə qaçın ki, mükafatı qazanasınız.
25 Yarışda iştirak edən hər kəs hər cəhətdən öz nəfsinə hakimdir. Onlar bunu
solub gedən dəfnə çələngi almaq üçün edər, biz isə solmaz tac almaq üçün
çalışırıq. 26 Beləliklə, mən də məqsədsiz qaçmıram. Havanı vuran adam kimi
yumruq atmıram. 27 Lakin bədənimi məcburən özümə qul edirəm ki,

---

*__9:11__ Rom. 15:27
*__9:13__ Qanun. 18:1
*__9:14__ Mat. 10:10; Luka 10:7
[j]**9:18** *Müjdəni* – bəzi əlyazmalarda *Məsih barəsində Müjdəni.*

başqalarına vəz edəndən sonra mükafatımdan məhrum olmayım.

# 10

## İsrail tarixindən ibrət dərsləri

1 *Qardaşlar, bixəbər olmağınızı istəmirəm ki, ata-babalarımızın hamısı
bulud altında qorundu, hamısı da dənizdən keçdi. 2 Hamısı Musanın ardınca
getmək üçün buludda və dənizdə vəftiz edildi. 3 *Hamısı eyni ruhani qida
yedi 4 *və eyni ruhani içki içdi. Çünki onlar ardlarınca gələn ruhani Qayadan
içirdi. O Qaya da Məsih idi. 5 *Amma Allah onların çoxundan razı qalmadı
və cəsədləri çölə sərildi.
6 *Bu hadisələr bizim üçün ibrət olsun deyə baş verdi ki, biz onlar kimi
pisliyə meyl göstərməyək. 7 *Onlardan bəzisi kimi bütpərəst olmayın. Onlar
barədə belə yazılıb: «Xalq oturub yeyib-içdi, sonra isə qalxıb oynaşdı».
8 *Onlardan bəzisi kimi cinsi əxlaqsızlıq etməyək. Bir gündə onlardan iyirmi
üç min nəfər öldü. 9 *Məsihi[k] sınamayaq: onlardan bəziləri belə etdi və
ilanlar onları öldürdü. 10 *Deyinməyin, çünki onlardan da bəziləri deyindi və
məhvedici mələk onları öldürdü. 11 Bu hadisələr ibrət dərsi olub onların
başına gəldi və bu dövrün sonuna çatan bizim üçün öyüd-nəsihət kimi
yazılıb. 12 Buna görə də kim ayaq üstə durduğunu düşünürsə, ehtiyatlı olsun
ki, yıxılmasın. 13 Siz insanın qarşılaşdığı sınaqdan başqa bir sınaqla
qarşılaşmadınız. Allah sadiqdir və O sizi gücünüzdən artıq sınağa çəkilməyə
qoymaz. Sınaqla yanaşı bu vəziyyətdən çıxış yolu ilə də təmin edəcək ki, tab
gətirə biləsiniz.

## Bütpərəstlik və Rəbbin süfrəsi

14 Beləliklə, ey sevimlilərim, bütpərəstlikdən uzaqlaşın. 15 Mən ağıllı
insanlara xitab edirəm. Dediklərimi siz özünüz araşdırın. 16 *Xeyir-dua

---

*__10:1__ Çıx. 13:21-22; 14:22-29
*__10:3__ Çıx. 16:35
*__10:4__ Çıx. 17:6; Say. 20:11
*__10:5__ Say. 14:29-30
*__10:6__ Say. 11:4
*__10:7__ Çıx. 32:6
*__10:8__ Say. 25:1-18
*__10:9__ Say. 21:5-6
[k]**10:9** *Məsihi* – bəzi əlyazmalarda *Rəbbi.*
*__10:10__ Say. 16:41-49
*__10:16__ Mat. 26:26-28; Mark 14:22-24; Luka 22:19-20

verdiyimiz xeyir-dua kasası Məsihin qanına şəriklik deyilmi? Böldüyümüz
çörək Məsihin bədəninə şəriklik deyilmi? [17] Çörək bir olduğu kimi biz də
çox olduğumuz halda bir bədənik. Çünki hamımız bir çörəyi bölüb yeyirik.
[18] [*]Soy-kökünə görə İsrail xalqına nəzər salın: qurbanları yeyənlər
qurbangaha şərik deyilmi? [19] Belədirsə, mən nə demək istəyirəm? Bütlərə
təqdim olunan qurban ətinin bir əhəmiyyəti varmı? Yaxud bütlərin
əhəmiyyəti varmı? [20] [*]Xeyr, amma deyirəm ki, bütpərəstlər qurbanlarını
Allaha yox, cinlərə gətirir. Cinlərlə şərik olmanızı istəmirəm. [21] Siz həm
Rəbbin kasasından, həm də cinlərin kasasından içə bilməzsiniz; həm Rəbbin,
həm də cinlərin süfrəsindən yeyə bilməzsiniz. [22] [*]Yoxsa Rəbbi qısqanclığa
vadar edirikmi? Məgər biz Ondan güclüyük?

### İmanlının azadlığı

[23] [*]«Hər şeyə icazə var» deyirsiniz, amma hər şey xeyir vermir. «Hər şeyə
icazə var», lakin hər şey ruhən inkişaf etdirmir. [24] Hər kəs öz xeyrini yox,
başqalarının xeyrini güdsün. [25] Ət bazarında nə satılırsa, vicdan məsələsini
qaldırmadan yeyin. [26] [*]Çünki «Rəbbindir yer üzü və orada mövcud olanlar».
[27] Əgər imanlı olmayanlardan biri sizi yeməyə dəvət edir və siz getmək
istəyirsinizsə, qabağınıza nə qoysalar, vicdan məsələsini qaldırmadan yeyin.
[28] Amma biri sizə desə ki, «bu, qurban ətidir», onda həm sizə bunu deyənin
xatirinə, həm də vicdan xatirinə yeməyin.[1] [29] Mən sizin vicdanınızı yox,
başqasının vicdanını nəzərdə tuturam. Axı nə üçün mənim azadlığım
başqasının vicdanı ilə müəyyənləşdirilsin? [30] Əgər şükür edərək yeməkdə
iştirak edirəmsə, şükür etdiyim yeməyə görə nə üçün mənə şər atırlar?
[31] Beləliklə, nə yeyirsinizsə, nə içirsinizsə, nə edirsinizsə, hər şeyi Allahın
izzəti üçün edin. [32] Yəhudilərin, Yunanların yaxud Allahın cəmiyyətinin
büdrəməsinə səbəb olmayın, [33] necə ki mən də hər şeydə hər kəsi razı
salmağa çalışıram. Bunu öz xeyrim üçün yox, çoxlarının xeyri üçün edirəm
ki, onlar da xilas olsun.

## 11

---

[*]**10:18** Lev. 7:6
[*]**10:20** Qanun. 32:17
[*]**10:22** Qanun. 32:21
[*]**10:23** 1Kor. 6:12
[*]**10:26** Zəb. 24:1
[1]**10:28** *Yeməyin* – bəzi əlyazmalarda *yeməyin. Çünki «Rəbbindir yer üzü və orada mövcud olanlar».*

1 *Mən Məsihdən nümunə götürdüyüm kimi siz də məndən nümunə
götürün.

## Məsihçi nizam-intizamı

2 Hər işdə məni xatırladığınız və sizə tapşırdığım təlimlərə sadiq qaldığınız
üçün sizi tərifləyirəm. 3 Bunu da bilmənizi istəyirəm ki, hər kişinin başı
Məsih, arvadın başı ər, Məsihin başı isə Allahdır. 4 Başına nə isə qoyub dua
yaxud peyğəmbərlik edən hər kişi öz başını şərəfsiz edir. 5 Başıaçıq dua
yaxud peyğəmbərlik edən hər qadın da öz başını şərəfsiz edir. Belə qadınla
saçları qırxılmış qadın arasında fərq yoxdur. 6 Əgər qadın başını örtmürsə,
qoy saçlarını qısa kəssin. Amma əgər qadın üçün saçını qısa kəsməsi yaxud
qırxması ayıbdırsa, qoy başını örtsün. 7 *Beləliklə, kişiyə Allahın surəti və
izzəti olduğuna görə başını örtmək olmaz. Qadınsa kişinin izzətidir. 8 *Çünki
kişi qadından yox, qadın kişidən yarandı. 9 Kişi qadın üçün yox, qadın kişi
üçün yaradıldı. 10 Bu səbəbdən mələklərə görə qadının başı üzərində ixtiyar
olmalıdır. 11 Hər halda Rəbdə nə qadın kişidən, nə də kişi qadından
müstəqildir. 12 Çünki qadın kişidən yarandığı kimi kişi də qadın vasitəsilə
yaranır və hər şey Allahdan yaranır. 13 Özünüz qərara gəlin, Allaha başıaçıq
dua etmək qadına yaraşarmı? 14 Məgər təbiətin özü sizə kişinin saçı uzun
olmasının özü üçün hörmətsizlik, 15 qadının saçlarının uzun olması isə onun
üçün şərəf olduğunu öyrətmir? Çünki qadına saç örtük kimi verilib. 16 Bu
barədə kim mübahisə etmək istəyirsə, bilsin ki, nə bizim, nə də Allahın
cəmiyyətlərinin belə bir adəti var.

## Rəbbin süfrəsinə aid təlimat

17 Sizin toplantılarınız xeyirdən çox zərər gətirdiyinə görə aşağıda yazılan
əmrlərdən çıxış edərək sizi tərifləmirəm. 18 Çünki əvvəl eşitmişəm ki,
cəmiyyətdə yığılanda aranızda dəstəbazlıq olur. Buna mən bir az da olsa,
inanıram. 19 Çünki Allahın sınaqdan keçmiş adamları bəlli olsun deyə
aranızda firqələrə bölünmə olmalıdır! 20 Xüsusən bir yerə toplaşanda
yediyiniz Rəbbin süfrəsi deyil. 21 Çünki biriniz o birisini gözləmədən
süfrənizi açırsınız və biri ac qalır, o birisi isə sərxoş olur. 22 Yeyib-içmək
üçün evləriniz yoxdurmu? Bəlkə siz Allahın cəmiyyətinə xor baxırsınız və
yoxsulları utandırmaq istəyirsiniz? Sizə nə deyim? Sizi tərifləyimmi? Əsla!
Bu işdə sizi tərifləməyəcəyəm.

23 Çünki sizə çatdırdığım bu xəbəri Rəbbin Özündən qəbul etmişəm: Rəbb

---

*__11:1__ 1Kor. 4:16; Flp. 3:17
*__11:7__ Yar. 1:26-27
*__11:8-9__ Yar. 2:18-23

İsa Ona xəyanət edildiyi gecə əlinə çörək götürdü, 24 şükür edib onu böldü və
dedi: «Bu[m] Mənim sizin üçün verilən[n] bədənimdir. Bunu Məni xatırlamaq
üçün edin». 25 *Eləcə də axşam yeməyindən sonra kasanı götürüb dedi: «Bu
kasa Mənim qanımla bağladığım Yeni Əhddir. Bunu hər dəfə içəndə Məni
xatırlamaq üçün edin». 26 Çünki hər dəfə bu çörəyi yeyəndə və bu kasadan
içəndə siz Rəbbin gəlişinədək Onun ölümünü bəyan edirsiniz.
27 Buna görə də kim layiq olmayan tərzdə Rəbbin bu çörəyini yeyib yaxud
Onun kasasından içsə, Rəbbin bədəninə və qanına qarşı təqsirkardır.
28 Bunun əvəzinə qoy insan özünü yoxlasın və sonra bu çörəkdən yeyib bu
kasadan içsin. 29 Çünki kim Rəbbin bədənini[o] dərk etməmiş yeyib-içsə,
yeyib-içərək öz üzərinə mühakimə gətirir. 30 Bu səbəbdən də bir çoxunuz
zəif və xəstədir, bəziləri isə vəfat etmişdir. 31 Əgər biz özümüzü düzgün dərk
etsəydik, mühakiməyə düşməzdik. 32 Rəbb bizi mühakimə edəndə dünya ilə
birlikdə məhkum olunmayaq deyə bizi tərbiyə edir.
33 Beləliklə, qardaşlarım, yeməyə toplaşanda bir-birinizi gözləyin. 34 Ac
olan varsa, qoy evində yesin ki, toplantınız mühakiməyə çevrilməsin. Qalan
məsələləri isə özüm gələndə nizama salacağam.

# 12

### Ruhani ənamlar

1 Qardaşlar, indi isə ruhani ənamlara gəlincə, bixəbər olmağınızı istəmirəm.
2 Bilirsiniz ki, siz bütpərəst olarkən necə tovlana-tovlana dilsiz-ağızsız
bütlərə tərəf yönəldiniz. 3 Buna görə sizi xəbərdar edirəm ki, Allahın Ruhu
vasitəsilə danışan heç kim «İsaya lənət olsun» deməz və heç kim Müqəddəs
Ruh vasitəsi olmadan «İsa Rəbdir!» deyə bilməz.
4 *Müxtəlif ənamlar var, amma Ruh eynidir. 5 Müxtəlif növlü xidmətlər var,
amma Rəbb eynidir. 6 Müxtəlif fəaliyyətlər də var, amma hamısını hər
adamda göstərən Allah eynidir. 7 Lakin Ruh hər kəsə xeyri üçün aşkar
olunur. 8 Birinə Ruh vasitəsilə hikmət sözü, başqasına isə eyni Ruhla bilik
sözü verilir. 9 Digərinə isə eyni Ruh imanı, o birisinə həmin Ruh şəfa
ənamlarını verir. 10 Birinə möcüzə yaratmaq, başqasına peyğəmbərlik,
digərinə ruhları ayırd etmək qabiliyyəti, bir başqasına müxtəlif dillərdə

---

[m]**11:24** *Bu* – bəzi əlyazmalarda *Alın və yeyin, bu* (Mat. 26:26).
[n]**11:24** *Verilən* – bəzi əlyazmalarda *əzilən.*
*11:25** Çıx. 24:6-8; Yer. 31:31-34
[o]**11:29** *Rəbbin bədənini* – hərfi tərcümədə *bədəni,* bəzi əlyazmalarda *layiq olmayan tərzdə Rəbbin bədənini.*
***12:4-12** Rom. 12:4-8

danışmaq, o birisinə bu dilləri izah etmək ənamı verilir. [11] Bunların hamısı
tək və eyni Ruhun fəaliyyətidir. Ruh bu ənamları hər kəsə Öz istədiyi tərzdə
paylayır.

### İsa Məsihin bədəni barəsində

[12] Bədən birdir və üzvləri çoxdur. Bədən üzvləri çox olduğu halda bir
bədən təşkil edir. Məsih də belədir; [13] çünki istər Yəhudi, istər Yunan, istər
qul yaxud azad, hamımız bir bədən olmaq üçün bir Ruhla vəftiz olunmuşuq
və hamımız eyni Ruhdan içirilmişik. [14] Bədən tək üzvdən deyil, çox üzvdən
ibarətdir. [15] Ayaq «mən əl olmadığıma görə bədənə aid deyiləm» desə, bu
səbəbdən bədəndən kənar deyil. [16] Qulaq «mən göz olmadığıma görə bədənə
aid deyiləm» desə, bu səbəbdən bədəndən kənar deyil. [17] Bütün bədən
gözdən ibarət olsaydı, necə eşidərdik? Bütün bədən qulaq olsaydı, necə iy
bilərdik? [18] Amma Allah istədiyi tərzdə bədən üzvlərinin hər birini bədəndə
yerləşdirdi. [19] Əgər hamısı bir üzv olsaydı, bədən nə vəziyyətdə qalardı?
[20] Doğrudan da, üzv çox, bədən isə birdir. [21] Göz ələ «sən mənə lazım
deyilsən» və yaxud baş da ayaqlara «siz mənə lazım deyilsiniz» deyə
bilməz. [22] Əksinə, bədənin daha zəif görünən üzvləri daha çox lazımlıdır,
[23] dəyəri az saydığımız bədən üzvlərini daha çox dəyərləndiririk,
görünməyən üzvlərimizə də xüsusi qayğı göstəririk. [24] Görünən üzvlərimizin
isə buna ehtiyacı yoxdur. Lakin Allah aşağı tutulan üzvü daha çox
dəyərləndirərək bədəni elə düzəltdi ki, [25] bədəndə ayrı-seçkilik olmasın,
əksinə, bütün üzvlər bir-birinə eyni qayğı göstərsin. [26] Buna görə əgər bir
üzv əzab çəkirsə, başqaları da onunla birgə əzab çəkir. Üzvlərdən biri şərəfə
çatırsa, başqaları da onunla birgə sevinir.
[27] Siz də Məsihin bədənisiniz, ayrı-ayrılıqda isə bu bədənin üzvlərisiniz.
[28] [*]Allah imanlılar cəmiyyətində birinci yerdə həvarilər, ikinci yerdə
peyğəmbərlər, üçüncü yerdə də müəllimlər təyin etdi. Sonra bəzilərinə
möcüzə yaratmağı, habelə şəfa ənamlarını, yardımçılığı, idarəçiliyi, müxtəlif
dillərdə danışmağı verdi. [29] Hamı həvaridirmi? Hamı peyğəmbərdirmi? Hamı
müəllimdirmi? Hamı möcüzə yarada bilirmi? [30] Hamının şəfa ənamları
varmı? Hamı naməlum dillərdə danışırmı? Hamı belə dilləri izah edə
bilirmi? [31] Amma daha böyük ənamları səylə istəyin. İndi isə sizə bundan da
əla yol göstərəcəyəm.

# 13

### Məhəbbətin qüdrəti

---

[*] **12:28** Ef. 4:11

1 Əgər mən insan və mələk dilləri ilə danışıramsa, lakin məhəbbətim
yoxdursa, cingildəyən mis və ya danqıldayan sincəm. 2 *Əgər peyğəmbərlik
ənamım varsa, bütün sirləri və hər cür biliyi dərk edirəmsə, dağları yerindən
tərpədəcək dərəcədə tam imanım varsa, amma məhəbbətim yoxdursa, mən
bir heçəm. 3 Əgər bütün var-dövlətimi paylayıb yoxsulları doyduraramsa və
bədənimi oda[p] təslim edərəmsə, lakin məhəbbətim yoxdursa, bunun mənə
heç bir xeyri yoxdur.
4 Məhəbbət səbirli, xeyirxahdır. Məhəbbət paxıllıq etməz, öyünməz,
lovğalanmaz, 5 kobudluq etməz, öz xeyrini güdməz, hirslənməz, ona edilən
pislikləri sayıb-hesablamaz. 6 Məhəbbət haqsızlığa sevinməz, həqiqətə isə
şadlanar. 7 O hər şeyə qatlaşar, hər şeyə inanar, hər şeyə ümid bəsləyər, hər
şeyə dözər.
8 Məhəbbət əsla tükənməz. Amma peyğəmbərliklər sona çatacaq, dillər
ənamı da qurtaracaq, bilik də aradan qalxacaq. 9 Çünki biliyimiz məhdud,
peyğəmbərliyimiz də məhduddur. 10 Kamillik gələndə məhdud olan aradan
qalxacaq. 11 Mən körpə olanda körpə kimi danışır, körpə kimi dərk edir,
körpə kimi düşünürdüm. Boya-başa çatdıqda isə körpə fikirlərimi tərk etdim.
12 İndi biz güzgüdəki kimi tutqun görürük, o zaman isə üzbəüz görəcəyik.
İndi biliyim məhduddur, o zaman isə haqqımda hər şey bilindiyi kimi mən
də hər şeyi biləcəyəm. 13 İndi isə üç şey qalır: iman, ümid, məhəbbət. Amma
bunların arasında məhəbbət üstündür.

# 14

### Naməlum dillər və peyğəmbərlik ənamları

1 Məhəbbətin ardınca gedin və ruhani ənamları, xüsusilə, peyğəmbərlik
ənamını səylə istəyin. 2 Çünki naməlum dildə danışan, adamlarla yox,
Allahla danışır. Onu heç kim başa düşmür. O, Ruh vasitəsilə sirlər söyləyir.
3 Peyğəmbərlik edənsə adamlarla onları ruhən inkişaf etdirmək,
həvəsləndirmək və təsəlli vermək üçün danışar. 4 Naməlum dildə danışan
özünü inkişaf etdirir, peyğəmbərlik edənsə cəmiyyəti inkişaf etdirir.
5 İstərdim ki, hamınız dillərdə danışasınız, daha yaxşı olar ki, peyğəmbərlik
edəsiniz. Çünki cəmiyyətin inkişafı üçün peyğəmbərlik edən insan dillərdə
danışan və izah etməyən insandan üstündür.
6 İndi isə, qardaşlar, yanınıza gəlib dillərdə danışsam, amma nazil olan
sözü, bilik, peyğəmbərlik yaxud təlim sözünü sizə deməsəm, sizə nə xeyrim
dəyər? 7 Tütək ya da çəng kimi cansız alətlər fərqli səslər çıxarmazsa, eşidən

---

*13:2 Mat. 17:20-21; 21:21; Mark 11:23

[p]**13:3** *Bədənimi oda* – bəzi əlyazmalarda *öyünmək üçün bədənimi ölümə.*

nə çalındığını necə bilər? [8] Əgər şeypur aydın olmayan səs çıxararsa, döyüşə
kim hazırlaşar? [9] Eyni tərzdə də əgər siz dilinizlə anlaşılan sözlər
söyləməsəniz, dediyinizi necə başa düşərlər? Siz havaya danışmış olursunuz!
[10] Şübhəsiz, dünyada bir çox cürbəcür danışıqlar var və onlardan heç biri
mənasız deyil. [11] Amma söylənilən danışığın mənasını bilmirəmsə, mən
danışan üçün yadelli oluram, danışan da mənə yadelli olur. [12] Eləcə siz də
ruhani ənamları səylə istədiyiniz üçün cəmiyyəti inkişaf etdirən ənamlarda
üstün olmağa çalışın.
[13] Bu səbəbdən də naməlum dildə danışan öz dediklərini izah edə bilməsi
üçün dua etsin. [14] Çünki əgər mən naməlum dildə dua edirəmsə, ruhum dua
edir, amma şüurum bəhrəsiz qalır. [15] Bəs mən nə edim? Ruhən də, şüurlu
surətdə də dua edəcəyəm, ruhən də, şüurlu surətdə də ilahi oxuyacağam.
[16] Təlim öyrənməmiş adamın vəziyyətini nəzərə al. Sən yalnız ruhən şükür
duası edirsənsə, o sənin şükranına necə «Amin!» desin? Axı sənin nə
dediyini başa düşmür. [17] Əlbəttə, sən yaxşı şükür edirsən, amma bu adam
inkişaf edə bilməz. [18] Mən dillərdə hamınızdan çox danışdığım üçün Allaha
şükür edirəm. [19] İmanlılar cəmiyyətində isə naməlum dildə minlərlə söz
deməkdənsə başqalarını öyrətmək üçün şüurlu surətdə beş kəlmə deməyi
üstün tuturam.
[20] Qardaşlar, əqlən uşaq olmayın. Pisliyə münasibətdə körpə olun, amma
əqlən yetkin olun. [21] [*]Qanunda yazılıb:

«Rəbb deyir:
“Bu xalqla yadellilərin ağzı ilə,
Başqalarının dilləri ilə danışacağam.
Amma onlar hətta o vaxt məni eşitmək istəməyəcəklər”».

[22] Beləliklə, naməlum dillər iman edənlər üçün deyil, imansızlar üçün bir
əlamətdir. Peyğəmbərlik isə iman etməyənlər üçün deyil, imanlılar üçündür.
[23] Əgər bütün cəmiyyət bir yerdə toplaşıb, hamı naməlum dillərdə danışmağa
başlayarsa və təlim öyrənməmiş adamlar yaxud iman etməyənlər oraya
girərlərsə, deməzlər ki, siz ağlınızı itirmisiniz? [24] Amma hamı peyğəmbərlik
edirsə və oraya iman etməyən yaxud təlim öyrənməmiş adam girirsə, o hamı
tərəfindən inandırılacaq, hər sözlə özünü araşdıracaq. [25] Ürəyindəki gizli
fikirlər aşkara çıxacaq və o üzüstə yerə döşənib Allaha səcdə edəcək və
«Allah, həqiqətən, aranızdadır!» deyib nida edəcək.

## Düzgün ibadət

[26] Bəs onda nə deyək, ey qardaşlar? Toplaşanda hər birinizin bir ilahisi, bir
dərsi, bir nazil olan sözü, bir naməlum dildə sözü, bir izahı var. Qoy bunlar

---

[*] **14:21** Yeş. 28:11-12

hamısı bir-birinizin inkişafı üçün olsun. [27] Əgər kimsə naməlum dildə
danışırsa, iki yaxud ən çox üç adam növbə ilə danışsın, bir nəfər də izah
etsin. [28] Əgər izah edən yoxdursa, naməlum dildə danışan cəmiyyətdə
sussun, yalnız özü ilə və Allahla danışsın. [29] İki ya üç peyğəmbər danışsın,
başqaları isə onların dediklərini ayırd etsin. [30] Əgər oturanlardan birinə nazil
olan söz gələrsə, ilk danışan sussun. [31] Çünki hamınız bir-birinizin ardınca
peyğəmbərlik edə bilərsiniz ki, hamınız təlim öyrənib ruhlanasınız.
[32] Peyğəmbərlərin ruhları da peyğəmbərlərə tabe olur. [33] Çünki Allah
qarışıqlıq deyil, sülh qaynağıdır. Müqəddəslərin bütün cəmiyyətlərində
belədir.
[34] Qadınlar cəmiyyət toplantılarında sussun, çünki onlara danışmağa icazə
verilmir; onlar Qanunun da buyurduğu kimi tabe olsunlar. [35] Öyrənmək
istədikləri bir şey varsa, evdə ərlərindən soruşsunlar. Çünki qadına
cəmiyyətdə danışmaq ayıbdır.
[36] Məgər Allahın kəlamı siz Korinflilərdən qaynaqlandı, yoxsa yalnız sizə
çatdı? [37] Kim özünü peyğəmbər və ya ruhani hesab etsə, qoy bilsin ki, sizə
yazdıqlarım Rəbbin əmridir. [38] Kim buna əhəmiyyət verməsə, ona da
əhəmiyyət verilməyəcək. [39] Beləliklə, qardaşlarım, peyğəmbərlik etməyi
səylə istəyin və naməlum dillərdə danışmağa da mane olmayın. [40] Amma
qoy hər şey ədəblə və intizamla edilsin.

# 15

## Məsihin dirilməsinin mühümlüyü

[1] İndi, qardaşlar, sizə bəyan etdiyim və qəbul edib əsaslandığınız Müjdəni
yadınıza salmaq istəyirəm. [2] Əgər sizə bəyan etdiyim sözə bağlanmısınızsa,
o Müjdə ilə də xilas olmaqdasınız, yoxsa əbəs yerə iman etmisiniz.
[3] [*]Özümün də qəbul etdiyim bu ən əhəmiyyətli təlimi sizə çatdırdım:
Müqəddəs Yazılara uyğun olaraq, Məsih günahlarımız üçün öldü, [4] dəfn
olundu və Müqəddəs Yazılara uyğun olaraq, üçüncü gün dirildi. [5] [*]O əvvəl
Kefaya, sonra On İki şagirdə göründü. [6] Bundan sonra beş yüzdən çox bacı-
qardaşa eyni anda göründü. Bu bacı-qardaşlardan çoxu indi də yaşayır,
bəziləri isə vəfat etmişdir. [7] [*]Məsih daha sonra Yaquba, sonra bütün
həvarilərə göründü. [8] Hamıdan sonra isə vaxtından əvvəl doğulmuş bir uşağa
bənzəyən mənə də göründü. [9] [*]Çünki mən həvarilərin ən kiçiyiyəm və

---

[*]**15:3-4** Zəb. 16:8-10; Yeş. 53:5-12; Mat. 12:40; Həv. 2:24-32
[*]**15:5** Mat. 28:16-17; Mark 16:14; Luka 24:34,36; Yəh. 20:19
[*]**15:7-8** Həv. 9:3-6
[*]**15:9** Həv. 8:3

Allahın cəmiyyətini təqib etdiyim üçün həvari adlanmağa layiq deyiləm.
10 Amma indi hər nəyəmsə, Allahın lütfü ilə eləyəm. Onun mənə göstərdiyi
lütf əbəs deyildi, çünki mən hamıdan çox zəhmət çəkdim. Əslində mən yox,
Allahın mənimlə birgə fəaliyyətdə olan lütfü bu zəhməti çəkdi. 11 Beləcə
istər mən, istərsə də onlar bu cür vəz edirik; siz də belə iman etmisiniz.

## Ölülərin dirilməsi

12 Əgər Məsih haqqında vəz olunursa ki, O, ölülər arasından dirildi,
sizlərdən bəzisi ölülərin dirilməsinin olmadığını necə söyləyə bilər? 13 Əgər
ölülərin dirilməsi yoxdursa, Məsih də dirilməyib. 14 Əgər Məsih
dirilməyibsə, onda həm bizim vəzimiz puç, həm də sizin imanınız puçdur.
15 Belə halda Allah barədə yalançı şahid olduğumuz da aşkara çıxacaq.
Çünki biz Allah barədə şəhadət etdik ki, O, Məsihi diriltdi. Amma ölülər
dirilməzsə, Allah Məsihi də diriltmədi. 16 Çünki əgər ölülər dirilməzsə,
Məsih də dirilməyib. 17 Əgər Məsih dirilməyibsə, imanınız da əbəsdir, siz
hələ günahlarınızın içindəsiniz. 18 Onda Məsihdə vəfat edənlər əbədilik
öldülər. 19 Əgər yalnız bu həyat üçün Məsihə ümid bağlamışıqsa, biz
hamıdan yazığıq.
20 Əslində Məsih ölülər arasından, vəfat edənlərin ilki olaraq dirildi.
21 Ölüm bir insanın vasitəsilə gəldiyinə görə ölülərin dirilməsi də bir İnsan
vasitəsilə gəlir. 22 Adəmdə hamı öldüyü kimi Məsihdə də hamı həyata
qovuşacaq. 23 Hər biri öz növbəsi ilə – ilk növbədə Məsih, sonra Məsihin
zühurunda Məsihə məxsus olanlar həyata qovuşar. 24 Bundan sonra O hər
başçını, hər hakimi və hər qüvvəni aradan götürüb Padşahlığı Ata Allaha
təslim edəcəyi zaman hər şey tamamlanacaq. 25 *Çünki Allah Onun bütün
düşmənlərini ayaqlarının altına salanadək O, padşahlıq etməlidir. 26 Aradan
götürüləcək son düşmən isə ölümdür. 27 *Çünki Allah «hər şeyi Onun
ayağının altına qoydu». Amma Məsihə hər şey tabe oldu deyiləndə aydın
olur ki, hər şeyi Ona tabe etdirən Allah buraya daxil deyil. 28 Hər şey Oğula
tabe olandan sonra Oğul Özü də Ona hər şeyi tabe etdirən Ataya tabe olacaq
ki, Allah hər şeydə hər şey olsun.
29 Yoxsa ölülər uğrunda vəftiz olunanlar nə edəcək? Əgər ölülər heç vaxt
dirilməsə, insanlar ölülər uğrunda niyə vəftiz olunur? 30 Biz də nə üçün hər
an təhlükələrə uğrayırıq? 31 Ey qardaşlar, Rəbbimiz Məsih İsada sizinlə
etdiyim fəxrin haqqı üçün mən hər gün ölümlə qarşılaşıram. 32 *Adi
insanların bəslədiyi ümidlərlə Efesdə vəhşi heyvanlarla mübarizə

---

*__15:25__ Zəb. 110:1
*__15:27__ Zəb. 8:6
*__15:32__ Yeş. 22:13

aparmağımın mənə xeyri nə idi? Əgər ölülər dirilməzsə, «qoy yeyib-içək,
çünki sabah öləcəyik!» 33 Aldanmayın:
«Pis adamlarla ünsiyyət yaxşı əxlaqı pozur».[q]
34 Ayılın, saleh olun, daha günaha batmayın. Axı bəziləriniz Allah barəsində
heç nə bilmir. Utanasınız deyə bunu yazıram.

## Dirilmədən sonrakı bədən

35 Lakin bir nəfər belə deyə bilər: «Ölülər necə diriləcək? Onlar nə cür
bədənlə gələcəklər?» 36 Ey ağılsız insan! Sənin əkdiyin toxum ölməsə,
həyata qovuşmaz! 37 Əkərkən hasil olacaq bədəni deyil, yalnız toxumu –
bəlkə buğdanın ya digər bitkinin toxumunu əkirsən. 38 Amma Allah o
toxuma istədiyi quruluşu verir. O hər bir bitən toxuma özünə məxsus quruluş
verir. 39 Hər canlı məxluqun əti eyni deyil. İnsan əti başqa, heyvan əti başqa,
quş əti başqa, balıq əti başqadır. 40 Səma cisimləri var, dünya cisimləri də
var. Amma səmavi olanların ehtişamı başqa, dünyəvi olanların da başqadır.
41 Günəşin ehtişamı başqa, ayın ehtişamı başqa, ulduzların ehtişamı başqadır.
Ulduz da digər ulduzdan ehtişamına görə fərqlənir.
42 Ölülərin dirilməsi də belədir. Əkilən toxum çürüyər, ondan əmələ gəlib
dirilən bədən çürüməz; 43 əkilən toxum hörmətsiz, dirilən bədən izzətlidir;
əkilən toxum zəif, dirilən bədən qüvvətlidir; 44 əkilən toxum təbii, dirilən
bədən ruhanidir. Təbii bədən varsa, ruhani bədən də var. 45 [*]Necə ki yazılıb:
ilk insan Adəm «canlı bir varlıq oldu». Sonuncu Adəm isə həyat verən ruh
oldu. 46 Amma ilkin ruhani deyil, təbii bədəndir. Ruhani isə sonra gəlir. 47 İlk
insan yerin torpağından, ikinci İnsan göydən yarandı.[r] 48 Torpaqdan yaranan
adam necədirsə, torpaqdan yarananlar da elədir; səmavi Adam necədirsə,
səmavilər də elədir. 49 Biz torpaqdan yarananın surətini necə gəzdiririksə,
səmavi Olanın surətini də elə gəzdirəcəyik.
50 Ey qardaşlar, bunu demək istəyirəm ki, ət və qan Allahın Padşahlığını irs
olaraq ala bilməz, eləcə də çürüyən bədən çürüməzliyi irs olaraq almaz.
51 [*]Baxın sizə bir sirr açmaq istəyirəm: hamımız vəfat etməyəcəyik, 52 amma
son şeypur çalınanda bir andaca, bir göz qırpımındaca hamımız
dəyişiləcəyik. Çünki şeypur çalınacaq, ölülər çürüməzliklə diriləcək, bizsə
dəyişiləcəyik. 53 Çünki bu çürüyən bədən çürüməzliyə, bu ölümə düçar olan

---

[q]**15:33** Bu sitat yunan dramaturqu Menandrın «Tais» komediyasındandır.
[*]**15:45** Yar. 2:7
[r]**15:47** *Torpağından, ikinci İnsan göydən yarandı* – bəzi əlyazmalarda *torpağından yarandı, ikinci İnsan göydən yaranan Rəbdir.*
[*]**15:51-52** 1Sal. 4:15-17

bədən ölməzliyə bürünməlidir. [54] [*]Çürüyən bədən çürüməzliyə və ölümə
düçar olan bədən ölməzliyə büründükdə

«Ölüm yox edildi,
Onun üzərində qələbə çalındı!»

deyə yazılmış söz yerinə yetəcək.

[55] [*]«Ey ölüm, qələbən hanı?
Ey ölüm, neştərin hanı?»[s]

[56] Ölümün neştəri günahdır, günah isə gücünü Qanundan alır. [57] Rəbbimiz İsa
Məsih vasitəsilə bizə qələbə bəxş edən Allaha şükür olsun!

[58] Beləliklə, ey sevimli qardaşlarım, Rəbdə çəkdiyiniz zəhmətin boşa
çıxmayacağını bilərək möhkəm durun, sarsılmayın, hər zaman Rəbbin işində
səylə çalışın.

# 16

## İanələr haqqında

[1] [*]İndi isə müqəddəslər[t] üçün ianələr yığmağa gəlincə, Qalatiya
cəmiyyətlərinə necə buyurmuşamsa, siz də elə edin. [2] Hər həftənin birinci
günü[u] hamınız qazancınıza görə müəyyən miqdarda pul ayırıb saxlayın ki,
mən yanınıza gələndə ianə yığmağa ehtiyac qalmasın. [3] Oraya çatanda
ianələrinizi Yerusəlimə çatdırmaq üçün seçdiyiniz adamları məktublarla
göndərəcəyəm. [4] Əgər mənə də getmək məsləhət olsa, onlar mənimlə gedər.

## Paulun səyahət niyyətləri

[5] [*]Mən Makedoniyadan keçəndən sonra yanınıza gələcəyəm, çünki
Makedoniyadan keçmək niyyətindəyəm. [6] Bəlkə də yanınızda bir az
qalacağam, hətta qışı da keçirəcəyəm ki, siz məni gedəcəyim yerlərə yola
salasınız. [7] Çünki mən sizinlə ötəri görüşmək istəmirəm. Rəbbin izni ilə
yanınızda bir müddət qalmağa ümid edirəm. [8] [*] [*]Efesdə isə Əllinci Gün

---

[*]**15:54** Yeş. 25:8
[*]**15:55** Huşə 13:14
[s]**15:55** *Ey ölüm, qələbən hanı? Ey ölüm, neştərin hanı?* – bəzi əlyazmalarda *Ey ölüm, neştərin hanı? Ey ölülər diyarı, qələbən hanı?*
[*]**16:1** Rom. 15:25-26
[t]**16:1** *Müqəddəslər* – yəni Yerusəlimdə yaşayan, İsaya inanan yoxsul Yəhudilər.
[u]**16:2** *Həftənin birinci günü* – yəni bazar günü.
[*]**16:5** Həv. 19:21
[*]**16:8** Lev. 23:15-21; Qanun. 16:9-11

bayramınadək[v] qalacağam. 9 Çünki mənə fəal iş üçün geniş qapı açılıb. Mənə
qarşı çıxanlar da çoxdur.
10 *Timotey nə vaxt yanınıza gəlsə, aranızda olanda onun heç bir şeydən
qorxmamasına diqqət yetirin, çünki o da mənim kimi Rəbbin işini görür.
11 Bu səbəbə görə də qoy heç kim ona xor baxmasın. Fəqət onu əmin-arxayın
yola salın ki, o yanıma gələ bilsin. Çünki mən qardaşlarla birgə onu
gözləyirəm.
12 Apollo qardaşa gəlincə, mən ondan çox xahiş etdim ki, qardaşlarla birgə
yanınıza getsin, amma o indi heç bir vasitə ilə getmək istəmir. Ona münasib
olan vaxt gedəcək.

### Son xahişlər

13 Ayıq olun, imanda sabit durun, mərd və möhkəm olun. 14 Qoy etdiyiniz
hər bir əməl məhəbbətlə olsun.
15 *Qardaşlar, sizdən bir xahişim var. Siz Stefananın ailəsini tanıyırsınız və
bilirsiniz ki, onlar Axayyanın ilk imanlılarıdır. Onlar özlərini müqəddəslərin
xidmətinə həsr etmişlər. 16 Siz də belə adamlara və onlarla birlikdə çalışan və
zəhmət çəkən hər kəsə tabe olun. 17 Stefana, Fortunat və Axaikin gəlməsinə
sevinirəm, çünki onlar gələndə sizin üçün darıxmağımı unutdum. 18 Onlar
sizin kimi mənim də ruhumu təzələdilər. Belələrinin qədrini bilin.

### Salam göndərmə

19 *Sizi Asiya vilayətinin cəmiyyətləri salamlayır.
Akila və Priskila öz evlərində toplaşan cəmiyyətlə birlikdə Rəbbin ismi ilə sizə çoxlu salam göndərirlər.
20 Bütün bacı-qardaşlar sizə salam göndərir. Bir-birinizi müqəddəs öpüşlə
salamlayın.
21 Mən Paul bu salamı öz əlimlə yazıram. 22 Rəbbi sevməyənə lənət olsun.
Marana ta![w] 23 Rəbbimiz İsanın lütfü sizə yar olsun! 24 Mənim məhəbbətim
Məsih İsada olan hamınızla olsun!

---

*__16:8-9__ Həv. 19:8-10
[v]**16:8** *Əllinci Gün bayramı* – yunan mətnində *pentikosti* sözü olub Pasxa bayramından sonra əllinci gün qeyd edilir. Bax Həv. 2:1.
*__16:10__ 1Kor. 4:17
*__16:15__ 1Kor. 1:16
*__16:19__ Həv. 18:2-3
[w]**16:22** *Marana ta* – arami dilində *Rəbbimiz, gəl!*